Kim mənə iki çənəsi arasındakını (dilini) və iki ayağı arasındakını (övrət yerini haramdan qorumağa) zəmanət verərsə, mən də ona Cənnəti zəmanət verərəm

Səhl bin Səad - Allah ondan razı olsun - rəvayət edir ki, Allah Rəsulu - sallәllahu aleyhi va səlləm - belə buyurmuşdur: "Kim mənə iki çənəsi arasındakını (dilini) və iki ayağı arasındakını (övrət yerini haramdan qorumağa) zəmanət verərsə, mən də ona Cənnəti zəmanət verərəm".

[Səhih] [Əl-Buxari rəvayət etdi]

Peyğəmbər - sallәllahu aleyhi va səlləm - bu hədisdə bizə iki iş barəsində xəbər verir. Əgər müsəlman bunların hər ikisinə əməl edərsə,Cənnətə daxil olar. Birincisi: Dilin Uca Allahı qəzəbləndirən sözlərdən qorunması. İkincisi: Cinsiyyət orqanının zinaya düşməkdən qorunması. Çünki bu iki əza ilə daha çox günahlar işlənilir.

http://www.sunnah.global/hadeeth/az/show/3475